Natural Resource Governance Institute

Resource Governance Index

# 2021
# Təbii Resursların İdarəedilməsi İndeksi
# Azərbaycan

Neft və Qaz

Azərbaycanın neft və qaz sektoru 2021-ci il Təbii Resursların İdarəedilməsi İndeksində (TRII) 100 baldan 56 bal toplayaraq, 2017-ci ilin Təbii Resursların İdarəedilməsi İndeksi ilə müqayisədə doqquz pillə yüksəlib. Ölkənin bu sektordan yaranan dəyərin reallaşması qabiliyyəti və ümumi "əlverişli mühit" göstəricisi son qiymətləndirmədən sonra pisləşsə də, gəlir idarəçiliyi üzrə göstərici 35 pillə irəliləyib və hazırda "yaxşı" icra qrupuna daxil olub.

- Lisenziyalaşdırma prosesində qaydaların və məlumat açıqlılığının olmaması, habelə, vəzifəli şəxslərin maliyyə maraqlarının açıqlanması və sektorda iştirak edən şirkətlərin benefisiar sahiblərinin müəyyən edilməsi ilə əlaqədar problemlər səbəbindən, lisenziyalaşdırmanın idarə edilməsi bölməsi 11 bal toplayaraq, "qeyri-qənaətbəxş" kimi dəyərləndirilib.
- Yerli təsirlərin idarə edilməsi bölməsi, ətraf mühit və sosial təsirlərin qiymətləndirilməsi, eyni zamanda, ətraf mühitə təsirlərin azaldılması planları ilə bağlı qanunlar və məlumat açıqlanması məsələlərinə görə "qeyri -qənaətbəxş" kimi qiymətləndirilmişdir.
- Dövlət neft şirkəti olan ARDNŞ, məhsul satış qaydaları və açıqlamaları xüsusilə problemli olduğu üçün "qənaətbəxş" qrupunun aşağı hissəsində yer alıb.
- Fiskal qaydaların tətbiqi və onların monitorinqi milli büdcə alt komponentinin dəyərləndirilməsini 2017-ci il TRİİ ilə müqayisədə 37 bənd artırmışdır.
- Ölkənin suveren rifah fondu olan ARDNF, həm hüquqi çərçivədə, həm də məlumatların açıqlanmasındakı irəliləyişdən dolayı "yaxşı" bal toplamışdır.

**Azərbaycanın Neft və Qaz Sektoru: 2021 il Təbii Resursların İdarəedilməsi İndeksi və ayrı-ayrı komponentlər üzrə ballar**




İCRA QRUPLARI

- YAXŞI — 75 baldan yuxarı
- QƏNAƏTBƏXŞ — 60-74 bal
- ZƏIF — 45-59 bal
- QEYRI-QƏNAƏTBƏXŞ — 30-44 bal
- UĞURSUZ — 30 baldan az




## DƏYƏR REALLAŞMASI

Hasilatlat icazələrinin, kəşfiyyat, hasilat, ətraf mühitin mühafizəsi, gəlirlərin toplanması və dövlət müəssisələri ilə bağlı idarəetmənin keyfiyyətinin ölçülməsi




## GƏLİRLƏRİN İDARƏEDİLMƏSİ

Milli büdcənin, submilli səviyyədə resurs gəlirlərinin bölüşdürülməsi və suveren rifah fondlarının keyfiyyətinin ölçülməsi




## ƏLVERİŞLİ MÜHİT

Ölkədəki idarəetmənin ümumi keyfiyyətinin ölçüsü

# 2021
# Təbii Resursların İdarəedilməsi İndeksi

## TƏBİİ RESURSURSLARIN İDARƏEDİLMƏSİ İNDEKSİ NƏTİCƏLƏRİNİN İCMALI

**Gəlirlərin idarə edilməsi sahəsindəki irəliləyişlərə baxmayaraq, Azərbaycanda resurs idarəçiliyi zəif olaraq qalır**

Azərbaycan 2019-cu ildə gündəlik hasilatı 775000 barelə çatan əsas xam neft istehsalçısıdır. Neft və qaz sektoru Azərbaycan iqtisadiyyatında fundamental rol oynayır və 2019-cu ildə bütün mal ixracat gəlirlərinin 90 faizindən çoxunu təşkil etmişdir.

Azərbaycanın Neft və Qaz Sektoru İdarəçiliyi 2021-ci il TRİİ-də 56 bal alıb ki, bu da, 2017-ci il göstəricisi ilə müqayisədə 9 bal artıqdır. Son qiymətləndirmədən bəri, fiskal qaydalarının qəbul edilməsi və ölkənin suveren rifah fondu olan ARDNF-un hüquqi çərçivələrinin təkmilləşdirilməsi sayəsində gəlir idarəçiliyi üzrə göstərici 35 bənd yaxşılaşmışdır. Lakin dəyərin reallaşması üzrə komponent 10 bal geriləyib və beləliklə, lisenziyalaşdırma prosesi və yerli təsirlərin idarə edilməsi "qeyri-qənaətbəxş" olaraq qiymətləndirilib.

2017-ci və 2021-ci illər üzrə Təbii Resursların İdarəedilməsi İndeksinin Azərbaycan neft və qaz sektoruna verdiyi ballar

| | 2017-ci il üçün TRİİ Balı | 2021-ci il üçün TRİİ Balı | Tendensiya |
|---|---|---|---|
| **TRİİ TƏRKIB BALI** | 47 | 56 | 9 |
| **DƏYƏR REALLAŞMASI** | 49 | 39 | -10 |
| Lisenziyalaşdırma | 28 | 11 | -17 |
| Vergiqoyma | 59 | 56 | -3 |
| Yerli səviyyədə təsir | 38 | 28 | -10 |
| Dövlət şirkətləri | 70 | 60 | -10 |
| **GƏLİRLƏRİN İDARƏOLUNMASI** | 43 | 78 | 35 |
| Milli Büdcə | 33 | 70 | 37 |
| Submilli resurs gəlirlərinin bölgüsü | . | . | . |
| Suveren Rifah Fondları | 52 | 86 | 34 |
| **ƏLVERIŞLI MÜHIT** | 49 | 50 | 1 |
| Fikir ifadəsi və hesabatlılıq | 15 | 13 | -2 |
| Hökumətin effektivliyi | 61 | 65 | 4 |
| Normativ keyfiyyət | 66 | 65 | -1 |
| Qanunun aliliyi | 54 | 52 | -2 |
| Korrupsiyaya nəzarət | 37 | 38 | 1 |
| Siyasi sabitlik və zorakılığın olmaması | 40 | 42 | 2 |
| Açıq məlumat | 70 | 74 | 4 |
| **QANUN** | 33 | 43 | 10 |
| **PRAKTIKA** | 58 | 51 | -7 |
| **BOŞLUQLAR (PRAKTIKA QANUNDAN AZDIR)** | 25 | 8 | -17 |

## DƏYƏR REALLAŞMASI

### Azərbaycanın neft-qaz sektorundan yaranan dəyərin reallaşma qabiliyyəti zəifləyib

2021-ci il üçün Azərbaycanın TRİİ-nin qiymətləndirilməsində lisenziyalaşdırma alt komponenti ən zəif göstərici olub və 11 bal alaraq, “qeyri-qənaətbəxş” kimi qiymətləndirilib. Lisenziyalaşdırma öncəsi və ya sonrakı proseslər heç bir qayda ilə tənzimlənmir və hökumət lisenziyalaşdırma prosesində şirkətlərin iştirakı üçün uyğunluq meyarlarını, müsabiqə şərtləri və prosesi tənzimləyən qaydaları açıqlamır (məsələn, hərrac və ya danışıqlar qaydası). Lisenziyalaşmadan sonrakı prosesə gəldikdə isə, heç bir qanun lisenziya üçün müraciət edənlər, qaliblər və ya ayrılmış sahələr barədə məlumatların açıqlanmasını tələb etmir. Bəzi lizensiya qaliblərinin adları hər hasilatın pay bölgüsü sazişinin parlament tərəfindən təsdiqlənməsindən sonra açıqlansa da, bu məlumatlar əhatəli olmayıb. Lisenziyaların kadastrını aparan Mədən Sənayesində Şəffaflıq Komissiyası 2020-ci ilin iyul ayında ləğv edilib və reyestr 2016-cı ildən bəri yenilənməyib; o vaxtdan bəri imzalanmış iki müqavilə haqqında məlumat da reyestrdə əksini tapmayıb.

Məmurların maliyyə maraqları ilə bağlı qaydalar və bu məlumatların açıqlanması qənaətbəxş deyil. Korrupsiya ilə Mübarizə Qanununun 5.1-ci bəndi ilə dövlət məmurlarından şirkətlərdəki maliyyə aktivləri barədə məlumatları dövlət qurumuna açıqlamaları tələb olunsa da, bu barədə ictimaiyyətə heç bir məlumat açıqlanmır və uyğun olaraq, vətəndaş cəmiyyətinin nəzarət orqanları bu məlumatları nəzərdən keçirə bilmirlər. Heç bir qayda hasilat şirkətlərinin benefisiar sahiblərinin müəyyən edilməsini tələb etmir. Azərbaycan Açıq Hökumət Tərəfdaşlığı (AHT) Milli Fəaliyyət Planının bir hissəsi olaraq, benefisiar mülkiyyətin açıqlanması haqda qanunların tətbiq edilməsi öhdəliyini götürsə də, 2020-ci ilin dekabrında başa çatan TRİİ qiymətləndirmə dövründə bu istiqamətdə heç bir irəliləyiş əldə edilməmişdir.

2021-ci il TRİİ indeksində Vergitutma sahəsində idarəçilik 56 bal toplayaraq, “zəif” göstəricilər qrupuna uyğun gəlib. Hökumət həm neft hasilatı məlumatlarını (şirkət səviyyəsində), həm də ixrac dəyəri ilə bağlı ümumi məlumatları 2020-ci ildə açıqlayıb. Gəlir vergiləri, royalti dərəcələri, ödəmə mənbəyindən vergi və hasilatın pay bölgüsü sazişləri ilə bağlı dəqiq qaydaları olan hasilat sektoru üçün vergiqoymanı tənzimləyən qanunlar da mövcuddur. Buna baxmayaraq, hüquqi çərçivə vergi orqanının fəaliyyətini tənzimləyən qaydaları daxil etmir. Vergi Məcəlləsinə görə, hasilat şirkətlərinin auditi kimi bir öhdəlik yoxdur və dövlət vergi xidmətinin özü də kənar qurum tərəfindən yoxlanılmır.

2017-ci ildə Azərbaycan Mədən Sənayesində Şəffaflıq Təşəbbüsündə üzvlüyünü dayandırıb və bundan sonra MSŞT standartına əsaslanan öz müstəqil hesabat prosesini qurub. Bununla belə, bu yeni hesabat prosesi beynəlxalq təşəbbüsün bir çox faydalarını ehtiva etmir və bu prosesdə vətəndaş cəmiyyəti kifayət qədər əhəmiyyətli rol oynamır. Digər mühim çatışmazlıq Azərbaycanda hesabat prosesinin kifayət qədər dinamik olmaması və adi dövlət statistik hesabatlılığa bənzəməsidir; hesabatlılığa benefisiar mülkiyyət barədə məlumatın açıqlanması və ya ən yaxşı təcrübələrin tətbiqi üçün aydın strategiya kimi vacib elementləri daxil edilməyib.

Azərbaycan hökuməti QHT-lərlə məsləhətləşmələr aparır və vətəndaş cəmiyyəti fəaliyyəti üçün əlverişli mühitin yaradılmasının müxtəlif aspektlərini müzakirə edir. Bu, ümidverici bir inkişafdır, lakin daha əhəmiyyətli irəliləyişlər (aşağıdakı tövsiyələrə baxın) nəticədə Azərbaycanın MSŞT üçün yenidən müraciət etməsinə və AHT-dəki (OGP) mövqeyini qorumağa səbəb ola bilər.

2021-ci il TRİİ ətraf mühit və sosial təsirlərin idarə edilməsini qeyri-qənaətbəxş dəyərləndirib. 2019 -cu il Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Qanunu hasilat şirkətlərinin ətraf mühitə təsirin qiymətləndirilməsini (ƏMTQ) təmin etməsi öhdəliyini qoysa da, sosial təsirin qiymətləndirilməsi üçün heç bir tələb irəli sürülməyib. Qanun həmçinin şirkətləri ƏMTQ açıqlamağa məcbur etmir, yəni ictimaiyyət hasilat sektorunun Azərbaycanın sahil zolağına, dənzə və ümumiyyətlə, biomüxtəlifliyə təsirini araşdıra bilmir. Eyni vəziyyət ətraf mühitin təsirinin azaldılması planlarına üçün də keçərlidir; Qanun hasilat şirkətlərindən təsirlərin azaldılması planlarını hazırlamağı tələb edir, lakin bunları ictimaiyyətə açıqlanması barədə susur. BP şirkəti Azərbaycanda öz əməliyyatları ilə bağlı ƏMTQ və sosial təsirlərin qiymətləndirilməsi hesabatlarını açıqlasa da, digər şirkətlər bu məlumatı açıqlamır.

Qanunda neft-qaz əməliyyatlarının bərpası və bağlanılmasını tənzimləyən prosedurlar da açıqlanmır. Əlavə olaraq, Torpaq Məcəlləsində neft və qaz layihələrinin torpaq istifadəçilərinin öz sahələrinə çıxışına maneə törətdiyi halda köçürülmə prosedurlarını tənzimləyən qaydalar yoxdur. Tazminatla bağlı qaydalar mövcud olsa da, qanun köçürülmə müddəaları ilə bağlı səssizdir.

# 2021
# Təbii Resursların İdarəedilməsi İndeksi

Azərbaycan Milli Neft Şirkəti ARDNŞ-nin idarəçiliyi ilə bağlı göstəricilər 2017-ci ilin TRİİ dəyərləndirilməsi ilə müqaisədə 10 pillə geriləyib və hazırda “qənaətbəxş” icra qrupunun aşağı hissəsində yer alıb. Bununla barəbər, ARDNŞ-ın idarəetməsində ən yaxşı təcrübənin əlamətlərini əks etdirən önəmli sahələr var. Şirkətin maliyyə hesabatları kənar auditor tərəfindən yoxlanılır və ARDNŞ illik hesabatı, balans hesabatını, pul vəsaitlərinin hərəkəti hesabatlarını, gəlir hesabatını və 2019-cu ildə dövlətə köçürülən gəlirlər barədə məlumatları daxil olmaqla konsolidasiya edilmiş maliyyə hesabatlarına internetdə yerləşdirib. ARDNŞ, mülkiyyət dərəcəsi, xərclər və gəlirlər də daxil olmaqla, birgə müəssisələri haqqında məlumatı da açıqlayıb.

ARDNŞ-ın hələ də xüsusən də məhsul satışları ilə əlaqədar olaraq inkişaf etdiriləcək sahələri var. Heç bir qayda ARDNŞ-ın öz neft və qaz məhsulları üçün alıcıları necə seçəcəyini və ya məhsulların hansı qiymətə satacağını müəyyən etmir və bu məlumatların ictimaiyyətə açıqlanmasını tələb etmir. ARDNŞ 2019-cu il üçün illik hesabatında neft və qaz satışlarının ümumi həcmini və dəyərini açıqlasa da, heç bir alıcı və ya satış tarixindən bəhs edilmir. Ən yaxşı təcrübəyə uyğun olaraq, ARDNŞ-dan hər bir satış üçün ayrıca olaraq satışın həcmi, dəyəri, alıcının kimliyi və satış tarixi haqqında məlumatları dərc etmək tələb olunur. Bu təsnifatlı məlumatların açıqlanması əsas maraqlı tərəflərin ARDNŞ-ın fəaliyyətini araşdırması, satışların siyasi və ya qeyri-məqbul səbəblərdən aparılmamasının təmin edilməsi, vergi və ya gəlir sızıntısının olmaması üçün önəmlidir.

## GƏLİRLƏRİN İDARƏ EDİLMƏSİ

### Milli büdcə prosesi və ARDNF-nun idarə edilməsindəki inkişaf bal artımına səbəb olub

Azərbaycanın 2021-ci il indeksinin milli büdcə altkomponenti üzrə balları 2017-ci ilin TRİİ-dən bəri 37 bənd yaxşılaşmışdır. Azərbaycan hökuməti 2019-2020-ci illər üçün büdcə və hökumət xərclərini açıqlayıb, eyni zamanda, Maliyyə Nazirliyi həm neft -qaz sektorundan əldə edilən gəlirləri, həm də neft gəlirlərinin proqnozlarını göstərən sənədləri dərc edib. Bu müsbət addımdır və əsas maraqlı tərəflərə neft sektorundan hansı gəlirlərin əldə oluna biləcəyini və gələcək illərin büdcələrinə necə təsir edə biləcəkləri barədə təsəvvür yaratmağa yardım edir. 2016-cı il Büdcə Sistemi haqqında Qanunun 11-1-ci maddəsi (2018 və 2019-cu illərdə düzəlişlər edilib) qarşıdakı illər üçün dövlət xərclərini tənzimləyən, xərclərin üst həddini müəyyən edən dəqiq rəqəmli qaydaları müəyyən edib. Uyğunluğun monitorinqi Hesablama Palatasının üzərinə düşür. Pozitiv haldır ki,2019-cu maliyyə ilində fiskal qaydalara əməl edilib və bu, nəzarət orqanı tərəfindən təsdiqlənib.

Azərbaycanın suveren rifah fondu olan ARDNF-nun idarə edilməsində əhəmiyyətli irəliləyişlər qeydə alınıb və bu göstərici 86 bal ilə “yaxşı” göstəricələr kategoriyasına düşüb. 2018-ci ilin dekabrında qəbul edilən qərarlarla fonddan vəsaitlərin çəkilməsini tənzimləyən qaydalar təkmilləşdirilib və Büdcə Sistemi haqqında Qanun həm depozitlər, həm də pul çəkilmələrin illik büdcədə qeydə alındığını və hökumətin qanunvericilik çərçivəsinə daxil edildiyini müəyyən edir. ARDNF hesabatlılıq qaydalarını da təkmilləşdirmişdir: Mühasibat Uçotu haqda Qanun illik hesabatın dərcini, eləcə də, ARDNF -in maliyyə hesabatlarının illik xarici maliyyə auditini tələb edir.

Azərbaycan, buna baxmayaraq, ARDNF-un idarəçiliyini daha da təkmilləşdirə bilər, belə ki, heç bir qanun parlamentdən ARDNF -in illik maliyyə hesabatlarını nəzərdən keçirməsini tələb etmir. Büdcə Sistemi haqqında Qanunun nəzərdən keçirilməli olan bütün sənədlər və qurumları sadalayan 12-ci maddəsinə hal-hazırda ARDNF daxil edilməyib və fondun maliyyə hesabatları qiymətləndirmə dövründə parlament tərəfindən nəzərdən keçirilməmişdir. Bu prosesə parlamentin nəzarəti vacibdir, çünki qanunverici hakimiyyət fondun investisiya fəaliyyətinin müəyyən edilmiş qaydalara uyğun olub-olmadığını müəyyən edə bilər və hesabatlılığın əsas tədbiri olan fondun maliyyə sağlamlığını və idarəçiliyini dərindən araşdıra bilər.

## QANUN VƏ PRAKTIKA BALLARI

### Azərbaycanın qanunvericilik bazası gücləndirilməlidir

Həm 2017-ci, həm də 2021-ci il TRİİ-də Azərbaycanın neft və qaz sektoru, qanunvericilik çərçivəsindən daha çox açıqlama və tətbiq göstəriciləri üzrə yüksək bal alıb. Bu, o deməkdir ki, yaxşı təcrübələr qanunda təsbit edilməyib, bu da, öz növbəsində məsul şəxslərin bu praktikadan imtina etməsi riskini yaradır. Qanun üzrə bal 2021-ci il TRİİ-də 33-dən 43-ə yüksəldiyi halda, praktika balı 58-dən 51-ə düşüb.

Qanun üzrə bal artımı əsasən gəlir idarəçiliyində müşahidə edilib, burada fiskal qaydalar və suveren rifah fondunu tənzimləyən qaydalarla bağlı yeni qanunlar hüquqi çərçivənin möhkəmliyini artırıb.

Azərbaycanın neft-qaz sektorunda qanun və praktika arasındakı boşluğun təkamülü



# TÖVSİYYƏLƏR

TRİİ Azərbaycanda neft və qaz sektoru üzrə idarəçiliyinin təkmilləşdirilməsi üçün aşağıdakı tədbirlər planını tövsiyə edir:

1. Azərbaycanın 2017-ci ildə MSŞT-dən çıxmasına baxmayaraq, **Nazirlər Kabineti** ölkənin hasilat sektoru ilə bağlı məlumat açıqlanmasını və bu sahədə ən yaxşı təcrübələrin tətbiq olunmasını təmin etməlidir. Bu, həm də vətəndaş cəmiyyəti ilə əməkdaşlığın və benefisiar mülkiyyətlə bağlı açıqlamaların təkmilləşdirilməsi deməkdir.
2. **ARDNŞ məhsul** satışının həcmi və dəyəri, habelə, neft alıcılarının kimliyinin açıqlanmasını təmin edən məlumat dərc etməlidir.
3. **ARDNF məlumat açıqlığı** sahəsində əldə edilən ümidverici irəliləyişi davam etdirməli və bu, Azərbaycandakı digər dövlət qurumları üçün bir meyar kimi istifadə edilməlidir.
4. **Ekologiya və Təbii Sərvətlər Nazirliyi** ətraf mühitə təsirlərin qiymətləndirilməsi hesabatlarının ictimaiyyətə açıqlanmasını tələb edən qanunlar qəbul etməli və hasilat sektorunda ekoloji risklərin azaldılmasına təkmil yanaşma təmin etmək üçün daha sərt qaydalar və monitorinq sistemləri tətbiq etməlidir.
5. **Energetika Nazirliyi** mövcud qaydaların daha şəffaf və hesabatlı olması üçün onların yenilənməsində əsas rol oynamalıdır.

## Təbii Resursların İdarəedilməsi İndeksi nədir?

2021-ci il TRİİ, təbii resurslarla zəngin 18 ölkənin neft, qaz və mineral sərvətlərini necə idarə etdiklərini qiymətləndirir. İndeksin tərkib balı üç komponentdən ibarətdir. Bunlardan ikisi hasilat sektorunun əsas xüsusiyyətini - dəyər reallaşması və gəlir idarəçiliyini ölçür; üçüncüsü isə idarəetməni daha geniş məzmununu - əlverişli mühiti əhatə edir. İdarəçiliyin bu üç ümumi ölçüsü 136 sualın cəmlənməsi ilə hesablanan 51 indikatordan ibarət 14 alt komponentdən ibarətdir.

TRİİ tərəfindən nəzarət edilən müstəqil tədqiqatçılar, 18 ölkənin hər birində dəyər reallaşması və gəlir idarəçiliyinə dair ilkin məlumatları toplamaq üçün sorğunu cavablandırıblar. Üçüncü komponent üçün TRİİ, 20-dən çox beynəlxalq təşkilatın xarici məlumatlarına əsaslanır. Qiymətləndirmə 2019-2020-ci illəri əhatə edir. İndeks və onun necə təşkil edilməsi haqqında daha çox məlumat üçün TRİİ Metod Sənədini nəzərdən keçirin.

Natural Resource Governance Institute

Müstəqil, qeyri-kommersiya təşkilatı olan Təbii Resursların İdarəetmə İnstitutu, tətbiqi tədqiqatlar və bilik və bacarıqların artırılması, texniki məsləhət və vəkillik kimi innovativ yanaşmalarla insanlara ölkələrinin neft, qaz və mineral sərvətlərindən yaranan faydaları reallaşdırmağa kömək edir.

Daha çox məlumatı www.resourcegovernance.org saytında əldə edin

Resource Governance Index